# AZƏRBAYCAN RESPUBLİKASININ 2011-2015-ci İLLƏR ÜÇÜN TÜTÜNLƏ MÜBARİZƏ ÜZRƏ MİLLİ STRATEGİYASI



Layihə

Strategiya "Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiyanın Hazırlanması Layihəsi" tərəfindən hazırlanıb. Layihə "Tütündən İstifadəni Azaltmaq üçün Blumberq Təşəbbüsü" fondu tərəfindən maliyyələşdirilir və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azərbaycan Səhiyyə Kommunikasiyası Assosiasiyası və Cons Hopkins Universiteti Blumberq İctimai Səhiyyə Məktəbi Kommunikasiyası Proqramları Mərkəzi tərəfindən həyata keçirilir.

Hazırlayanlar:

Nurlan Əliyev - Azərbaycan Səhiyyə Kommunikasiyası Assosiasiyası,

Cəmilə Əzizova - Azərbaycan Səhiyyə Kommunikasiyası Assosiasiyası,

Azad Hacıyev – Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Sağlam Həyat Tərzi üzrə Milli Koordinatoru,

Səbuhi Abdullayev - Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi.

Resenziya verənlər:

Alice Merritt - Cons Hopkins Universiteti Blumberq İctimai Səhiyyə Məktəbi Kommunikasiyası Proqramları Mərkəzinin direktor müavini,

Ceyhun Məmmədov - Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru.

Layihə iştirakçıları Tütünlə Mübarizə üzrə Milli Koalisiyanın üzvü olan təşkilatlara, Milli Məclisin Sosial Siyasət Komitəsinin üzvlərinə, dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatlara Strategiyanın hazırlanması zamanı göstərdikləri köməyə görə öz təşəkkürlərini bildirirlər.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AHCA

JOHNS HOPKINS BLOOMBERG SCHOOL of PUBLIC HEALTH
Center for Communication Programs

Bu sənəd Ümumdünya Ağ Ciyər Fondu tərəfindən verilmiş qrantın dəstəyi ilə çap edilib. Sənədin məzmunu müəlliflərin şəxsi məsuliyyətidir və heç bir halda Vərəm və Ağ Ciyər Xəstəlikləri üzrə Beynəlxalq Birliyin və başqa donorların mövqeyini əks etdirmir.

LAYİHƏ

# AZƏRBAYCAN RESPUBLİKASININ 2011-2015-ci İLLƏR ÜÇÜN TÜTÜNLƏ MÜBARİZƏ ÜZRƏ MİLLİ STRATEGİYASI

## Giriş

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən dünyada 2005-ci ildə tütün istifadəsi ilə bağlı xəstəliklərdən təqribən 5 milyon adamın dünyasını dəyişdiyi nəzərə alınarsa, bu rəqəmin 2030-cu ilə qədər hər il dünyada 10 milyon nəfərə çatacağı ehtimal edilir. Tütündən istifadənin getdikcə artmasına, dünya səviyyəsində insan sağlamlığının təhlükəli həddə çatmasına və tütün şirkətlərinin bazar yaratma strategiyalarına qarşı ÜST-nin 56-cı Ümumdünya Səhiyyə Assambleyasında 21 may 2003-cü il tarixdə bu mövzuda ilk millətlərarası razılaşma xüsusiyyətlərini daşıyan "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyası imzalanmışdır. Başqa 168 ölkə ilə yanaşı Azərbaycan "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barəsində 20 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2005-ci ilin 01 noyabr tarixində "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasını ratifikasiya etmişdir.

Tütünlə Mübarizə üzrə Milli Strategiya (bundan sonra Strategiya adlandırılacaq) "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasının (bundan sonra TMÇK adlandırılacaq) 5-ci maddəsinə uyğun olaraq işlənilib və Azərbaycanda vəziyyətin obyektiv şərtlərindən yaranan tütün istifadəsinin yayılmasının qarşısının alınmasını özündə əks etdirən dövlət siyasətinin 2011-2015-ci illər üçün perspektivi tütünlə mübarizə sahəsində əsas istiqamətlərini birləşdirir.

TMÇK-nın 5-ci maddəsində göstərildiyi kimi TMÇK-nı ratifikasiya etmiş hər bir ölkədə, o cümlədən Azərbaycanda da Tütünlə Mübarizə üzrə Milli Strategiya hazırlanıb həyata keçirilməlidir.

Tütün Azərbaycanın vətəndaşlarının sağlamlığı üçün real təhlükədir. Bir sıra sosial, iqtisadi və ekoloji nəticələr tütün istifadəsi və tütün tüstüsünün təsiri ilə bağlıdır, siqaret və başqa tütün məmulatlarının istifadəsinin artması isə ciddi yük olaraq səhiyyə sisteminin üzərinə düşür.

Tütün istifadəsi ürək-damar xəstəlikləri[1], ağ ciyər-bronxial sisteminin xəstəlikləri[2], bədxassəli xəstəliklər[3], mədə-bağırsaq xəstəlikləri[4], reproduktiv sistem xəstəlikləri[5] və bətndaxili ölüm, ağız boşluğu xəstəlikləri, şəkərli diabet, osteoporoz, katarakta və başqa xəstəliklərin yaranmasını artırır. Bununla yanaşı tütün istifadəsindən imtina etməkdə əsas maneə onu istifadə edənlərdə tütün asılılığının - insanın davranış reaksiyalarına təsir göstərən xroniki xəstəliyin yaranmasıdır.

Statistik qeydlərə əsasən Azərbaycanda 16 və yuxarı yaşda kişilərin 37,3%-i siqaret çəkir (40-49 yaş qrupunda bu rəqəm 16 və yuxarı yaşda olan əhali arasında siqaret çəkənlər - 55,3%-dir), qadınların isə 0,1%-i tütündən istifadə edir.[6]

Tütündən istifadə edənlərin 90%-i son 24 saat ərzində 10 və ya daha çox siqaret çəkdiklərini bildirmişlər. Yaşlaşdıqca kişilərin tütündən istifadə etmə ehtimalı daha çox artır.[7]

---

1 miokard infarktı, qeyri-sabit stenokardiya, insult, periferik arteriyaların okklüzion xəstəliyi, aorta anevrizması və s.

2 ağ ciyərlərin xroniki obstruktiv xəstəliyi, ağ ciyər emfizeması, sətəlcəm, respirator infeksiyalar, vərəm və s.

3 ağ ciyər, ağız boşluğu, qırtlaq, qida borusu, mədə və mədəaltı vəzinin və başqa orqanların xərçəngi

4 qastrit, mədə xorası, ezofaqit və s.

5 qadınlarda nəsil artırma funksiyasının aşağı enməsi, spontan abortlar, kişilərdə impotensiya və s.

6 Azərbaycan Dövlət Statistika Komitəsi, 2008-ci ildə ev təsərrüfatları tədqiqatının məlumatlarına əsasən, http://www.azstat.org/statinfo/demoqraphic/az/GK_2.shtml

7 "Azərbaycanda Sağlamlıq barədə Bilik, Münasibət, Təcrübə araşdırması", USAİD, 2006.

Bununla belə indiyədək Azərbaycanda ÜST və partnyorları tərəfindən dünyanın bir çox ölkələrində reallaşdırılan Böyüklər Arasında Qlobal Tütün Tədqiqatı (GATS) və Gənclər Arasında Qlobal Tütün Tədqiqatı (GYTS) keçirilməmişdir.

Azərbaycanda tütün məhsulunun bazarda irəli çəkilməsi və onun istehlakçılarının sayının artması, tütün məmulatlarına olan vergilərin və qiymətlərin aşağı olması, əhalinin bütün təbəqələrinə, xüsusən də gənclərə, tütün məmulatlarının geniş əlçatanlığı, tütünçəkmənin zərəri, tütün tüstüsünün insan orqanizminə hərtərəfli təsiri haqqında əhalinin az məlumatlandırılması, tütün istifadəsindən imtina etməyə yönələn tibbi yardımın aşağı səviyyədə təşkili bu problem ilə mübarizəni çətinləşdirir.

Bu Strategiya ÜST-nin qlobal tütün epidemiyası ilə mübarizə üçün hazırlanmış MPOWER tədbirlər kompleksinə əsaslanır və Azərbaycanda tütünçəkmə ilə mübarizədə əsas prioritetləri nəzərə alır. Tütün istehlakının, istehsalının və satışının bütün aspektlərini əhatə edən bu Strategiya Azərbaycan vətəndaşlarının həyatını və sağlamlığını qoruyur, ölkəmizi tütünçəkmə yükündən azad etmək məqsədi daşıyır.

## A. TÜTÜN İSTEHLAKININ VƏ PROFİLAKTİK STRATEGİYALARIN MONİTORİNQİ

### A1. Tütün istehsalına nəzarət

**Mövcud vəziyyət**

Tütün tüstüsünün tərkibində 4000-dən artıq kimyəvi birləşmə vardır. Onların 50-dən çoxundan bəzilərinin kanserogen (xərçəng törədici) olduğu dəqiq məlumdur və bəzilərinin belə təsir göstərdiyi ehtimal olunur. Birləşmələrin bir çoxunun isə güclü qıcıqlandırıcı təsiri vardır.

2001-ci ildə Səhiyyə Nazirliyi tərəfindən rezin maddələr, nikotin və karbon monoksidin tütündə tərkibi üzrə yeni gigiyenik standartlar təsdiqlənmişdir.

Bununla yanaşı Azərbaycanda tüstüsünün tərkibi texniki reqlamentlə tənzimlənməyən qəlyan, siqara və trubka istehlakının yayılması artır. Vətəndaşların sağlamlığının qorunması üçün güclü zəhərləyici maddələrə nəzarətin zəruriliyi sübut olunub. Bu da 2008-ci ilin noyabr ayında ÜST-nin İcra Komitəsinin 124-cü sessiyasında təqdim olunan ÜST-nin tütün tüstüsünün zəhərləyici maddələrinin konsentrasiyasının azaldılması üzrə məruzələrində əks etdirilib.

Bu günə kimi siqaret istehsalçıları tərəfindən "qatran az miqdarda", "yüngül" və (və ya) "çox yüngül" və digər söz və ya söz birləşmələrinin siqaret qablarının üzərində istifadə edilməsi və tütün məmulatının sağlamlıq üçün daha az zərərli olduğu haqda təəssürat yaradılması vasitəsilə istehlakçının aldadılmasına yol verilməməsi haqda məsələ tənzimlənməmiş qalır.

**Məqsəd**

Tütün və tütün tüstüsündə olan kanserogen maddələrin, qatqı maddələrinin və zəhərli birləşmələrin elmi cəhətdən qiymətləndirilməsi, məhsulun standartları ilə bağlı tənzimləmələrin aparılması və tütün və tütün məmulatlarının tərkibindəki zərərli maddələrin monitorinqinin aparılması.

**Vəzifələr**

1. 2012-ci ildən etibarən tütün və tütün məhsullarının tərkibinin qiymətləndirilməsi üçün sertifikatlaşdırılmış milli laboratoriyaları yaratmaq və ÜST-nin tərkibində fəaliyyət göstərən TobLabNet (millətlərarası laboratoriya, test və analiz şəbəkəsi) ilə koordinasiya şəklində fəaliyyət göstərmək.

2. 2012-ci ildən etibarən Azərbaycanda istehsal və istehlak edilən tütün məmulatlarının tərkibi ilə əlaqədar cəmiyyəti ətraflı məlumatlandırmaq.

3. 2012-ci ildən etibarən tütün məmulatlarının tərkibinin standartlara uyğunluğunu mütəmadi olaraq izləmək.

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | Sektorlararası işçi qrupun yaradılması və həmin qrup tərəfindən tütün və tütün məmulatlarının istehsalına və yoxlanılmasına dair standartların müəyyən edilməsi. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 2. | Milli müstəqil elmi yoxlamadan keçən sertifikatlaşmış qiymətləndirmə laboratoriyalarının qurulması, bu laboratoriyaların ÜST tərkibində fəaliyyət göstərən TobLabNet millətlərarası tütün testi və araşdırma laboratoriya şəbəkəsi kriteriyalarını reallaşdıraraq şəbəkəyə üzv olmasının təmin edilməsi. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 3. | Tütün və tütün istehsalında milli və beynəlxalq normalara uyğunluğun təmin olunması. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 4. | Tütün və tütün məmulatlarında istifadə olunan maddələrin tərkiblərinin nizamlı şəkildə rəsmi laboratoriyalar tərəfindən yoxlanılması. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 5. | Tütün və tütün məmulatlarının hər bir qutu və bağlamasında qablaşdırılma üzərində əlaqədar qurumlar tərəfindən müəyyənləşdirilmiş məzmun və tərkib ilə əlaqəli məlumatların yerləşdirilməsi. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 6. | Qutuların üzərindəki “yumşaq”, “ultra yumşaq”, “az qatranlı” kimi təyin etmələrin, siqaret adları və simvollarında əhalini aldadacaq yanlış istiqamətləndirici elementləri, tütün məmulatları və markalarının iş yeri adı olaraq istifadə olunmasının qadağan edilməsi üçün tənzimləmələrin aparılması, mövcud tənzimləmələrin tətbiq olunması. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 7. | İstehsalçılar tərəfindən tütün məmulatlarının bazara uyğun qablaşdırılması üzərində tütün istifadəsinin sağlamlıq üçün zərərli təsirlərini izah edən xəbərdarlığın və nəzərə çarpan şəkillərin yer almasını təmin edən qanunauyğun tənzimlənmələrin təkmilləşdirilməsi və tətbiq olunması. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 8. | Təhsil qurumları və mətbuat, nəşriyyat orqanları vasitəsilə tütün və tütün məmulatlarının tərkibi barədə cəmiyyətin məlumatlandırılması. | Milli Teleradio Şurası, Səhiyyə Nazirliyi, Mətbuat Şurası, Təhsil Nazirliyi |
| 9. | Tüstüsüz tütün məmulatları və qəlyan tütün məmulatları, tənbəki və siqar kimi məhsulların istehsalına, qablaşdırılması və yayılması ilə bağlı fəaliyyətlərə nəzarət olunması. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |

| | | |
|---|---|---|
| 10. | Tütün məmulatlarında istifadə olunan maddələrin tərkibində nələr olduğu və tütün çəkilməsi qadağan olunmuş yerlərdə çəkən insanlara hansı cəza tədbirləri tətbiq olunacağı mövzularda ictimaiyyətin məlumatlandırılması. | Səhiyyə Nazirliyi, Milli Teleradio Şurası, qeyri-hökumət təşkilatları, Təhsil Nazirliyi. |
| 11. | Tütün və tütün məmulatlarının istehsalı və yoxlanılması ilə əlaqədar standartlara əməl olunub-olunmamasına nizamlı olaraq nəzarət edilməsi. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 12. | Qanuni tənzimləmələrə əməl etməyənlərə qarşı daşındırıcı tənzimləmələrin hazırlanması və tətbiq edilməsi. | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |

### A2. Tütün təchizatının və tütün məhsullarının istifadəsinin azaldılmasına istiqamətlənmiş tədbirlər

**Mövcud vəziyyət**

Azərbaycanın kənd təsərrüfatı sahəsində tütün becərilməsi çox cüzi çəkiyə malikdir. Lakin ölkədə tütün məhsullarının istehsalı ilə məşğul olan müəssisələr kifayət qədərdir. Bunlar arasında həm transmilli korporasiyalar, həm də ayrı-ayrılıqda fəaliyyət göstərən orta və kiçik səviyyəli yerli müəssisələr yer alır. Tütün istehsalının azaldılması üçün mövcud beynəlxalq təcrübəyə əsasən Alternativ Məhsul layihələri həyata keçirilməlidir. Bu layihə daxilində qabaqcadan görülən tədbirlərlə becərmə və istehsal müəssisələrinin qeydə alınma işləri aparılmalıdır. Bir çox ölkələrdə, məsələn Türkiyə Respublikasında analoji layihə Dünya Bankı tərəfindən dəstəklənib. Tütün istehsalından imtina edən və ya imtina etdirilən tütün istehsalçılarının və istehsalın azalması nəticəsində tütün istehsalı sahəsində çalışmış işsiz qalan işçilərin sosial və iqtisadı baxımdan zərər çəkməmələri üçün müəyyən köməklik proqramı həyata keçirilməlidir.

**Məqsəd**

Tütün istehsalına olan nəzarətin izlənilməsi, tütünə alternativ əkinçilik məhsulları və iqtisadi fəaliyyətlərin müəyyənləşdirilməsi, tütün istehsalından alternativ məhsul istehsalına keçən istehsalçıların iqtisadi varlıqlarını davam etdirə bilmələrinin təmin olunması.

**Vəzifələr**

2015-ci ilə qədər tütün istehsalından imtina edən və ya imtina etdirilən istehsalçılar ilə sektordan uzaqlaşma vəziyyətində qalan tütün istehsalatı işçilərinin alternativ məhsullarla işləmək və iqtisadı fəaliyyətlə məşğul olmaları üçün tədbirlər həyata keçirmək, aparılacaq alternativ keçid yollarının inkişafını təmin etmək.

LAYİHƏ

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | Tütün istehsalının izlənilməsi, qeydiyyat əməliyyatlarının Avropa Birliyi Ortaq Tütün Bazar Tənzimlənməsi normalarına uyğunlaşdırılması. | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 2. | Tütün istehsalının məhdudlaşdırılması nəticəsində tütün istehsalçılarının alternativ sahələrdə qeydiyyatı və reabilitasiyası üçün lazımi sosial siyasətlərin strukturlaşdırılması. | Kənd Təsərrüfatı Nazirliyi. |
| 3. | Gəlir əldə etmək baxımından tütünə alternativ məhsulların təşviqi və ya təşviq ediləcək məhsulların satışa çıxarılması üçün lazımi təşkilati işlərin aparılması. | Kənd Təsərrüfatı Nazirliyi. |
| 4. | Yetişdirilən alternativ məhsulların yerində qiymətləndirilməsi məqsədi ilə qurutma, qablaşdırılma və buna bənzər təsisatların yaradılması. | Kənd Təsərrüfatı Nazirliyi. |
| 5. | İstehsalçının maarifləndirilməsi və məlumatlandırılması məqsədi ilə nəzərə çarpacaq işlərin görülməsi. | Kənd Təsərrüfatı Nazirliyi. |

**A3. Tütün istifadəsi və Strategiyanın effektivliyinin monitorinqi və qiymətləndirilməsi**

**Mövcud vəziyyət**

Mövcud olan beynəlxalq təcrübəyə əsasən strategiyanın, tütünlə bağlı vəzifələrin, digər tənzimləyici mexanizmlərin nizamlı olaraq izlənilməsi şəraitində uğur əldə olunması müşahidə edilmişdir. Bu günə kimi tütünlə mübarizə ilə bağlı qəbul edilən tədbirlərin effektivliyinin sonrakı qiymətləndirilməsi məqsədilə nəticələri Azərbaycan Respublikasının bütün ərazisi üçün əsas kimi götürülə biləcək vahid milli reprezentativ epidemioloji tədqiqat aparılmayıb. Buna görə də tütünlə mübarizə sahəsində effektiv qərarların qəbul edilməsi, həm də lazımi vəsaitlərin əsaslandırılması üçün Strategiyanın effektivliyinin qiymətləndirilməsi və monitorinqi (bundan sonra monitorinq sistemi adlandırılacaq) sistemi yaradılmalıdır.

Monitorinq sistemi tütün istehlakının dinamikasının qiymətləndirilməsinə, Strategiyada müvafiq düzəlişlərin daxil edilməsi üçün tütün epidemiyasının ölkədə nəticələri haqda obyektiv məlumatın və onun həyata keçirilməsi üzrə planın alınmasına imkan yaradacaq.

**Məqsəd**

Tütünlə Mübarizə üzrə Milli Strategiyanın müddət və xərclərinin monitorinqi, qiymətləndirilməsi və hesabatlaşdırılması üçün layihə hazırlanması.

**Vəzifələr**

1. 2012-ci ilin sonuna qədər Tütünlə Mübarizə üzrə Milli Strategiyanın monitorinqi və hesabatlaşdırılması üçün milli məlumat sistemi yaratmaq.

2. 2015-ci ildə Tütünlə Mübarizə üzrə Milli Strategiyanın təsirinin qiymətləndirilməsi və hesabatlaşdırılması.

**Fəaliyyət istiqamətləri**

| | **Fəaliyyət istiqamətləri** | **Əlaqədar qurum və strukturlar** |
|---|---|---|
| 1. | Tütünlə Mübarizə üzrə Milli Strategiyanın müddət və xərclərini bildirən göstəricilərin müəyyən edilməsi. | Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi. |
| 2. | Müəyyənləşdirilən məlumatların təkrar toplanması üçün məlumatların toplama-araşdırma protokollarının hazırlanması. | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi. |
| 3. | Məlumatların toplanması və qiymətləndirilməsinin əlaqələndirilməsinə məsul olan bir strukturun yaradılması. | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi. |
| 4. | Monitorinq və qiymətləndirmə sisteminin yaradılması gələcək effektiv planlaşdırmanı, həm də TMÇK-nın 21-ci maddəsinə uyğun olan "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasının 2010-cu ildə yerinə yetirilməsi haqda və sonra vaxtaşırı olaraq TMÇK-nın tərəflərinin Konvensiya ilə təyin edilən və aşağıdakı məlumatları daxil edən ölkə tərəfindən ilk və sonrakı hesabatların verilməsini təmin etməyə imkan yaradacaq:<br>a. Konvensiyanın həyata keçirilməsi məqsədilə qanunverici, icraedici və digər tədbirlər haqqında;<br>b. Konvensiyanın həyata keçirilməsi zamanı rast gəlinən hər hansı bir maneə və ya əngəllər və onları aradan qaldırmaq üçün tədbirlər haqqında;<br>c. tütünlə mübarizə üzrə fəaliyyət üçün verilən və alınan maliyyə və texniki yardım haqqında;<br>d. TMÇK-nın 6-cı (tütünə tələbatın azaldılması üzrə qiymət və vergi tədbirləri), 13-cü (tütün məmulatlarının reklamı, sponsorluğu və satışın stimullaşdırılması), 15-ci (tütün məmulatlarının qeyri-qanuni satışı) və 19-cu (məsuliyyət) maddələrinin həyata keçirilməsi haqqında. | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, QHT-lər. |
| 5. | Vacib olduğu zaman Strategiyanın təsirliliyinin və maliyyə təsirinin araşdırılması. | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, QHT-lər. |
| 6. | Tütünlə Mübarizə üzrə Milli Strategiyadakı çatışmazlıqların, onların mövcud olma səbəblərinin və həlli təkliflərinin illik olaraq qiymətləndirilməsi və hesabatlaşdırılması. | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi. |

## B. İNSANLARIN TÜTÜN TÜSTÜSÜNDƏN MÜHAFİZƏSİ

### B1. Ətraf mühitlə əlaqəli tütünçəkmə (ikincili tütünçəkmə / passiv olaraq tütün tüstüsünün təsirinə məruz qalma)

**Təriflər**

Tütün tüstüsünə passiv məruz qalma (ikincili tütünçəkmə): başqalarının çəkdiyi tütün və tütün məmulatlarının tüstüsünə dolayı, insanın öz istəyi olmadan məruz qalması halıdır. Bundan əlavə ananın aktiv və ya passiv tütünçəkməsi nəticəsində tütün tüstüsünə məruz qalan dölün də vəziyyəti passiv məruz qalma kimi tanınır.

**Mövcud vəziyyət**

Passiv tütünçəkməyə məruz qalmanın ölüm, xəstəlik və şikəstliklərə gətirib çıxarması elmi cəhətdən sübuta yetirilsə də, sağlamlıq riskləri cəmiyyətin əksəriyyəti tərəfindən qəbul edilmir. Azərbaycanda passiv tütünçəkməyə məruz qalma mövzusunda yetərli məlumat yoxdur. Bu vaxta qədər Azərbaycanda ikincili tütün tüstüsünün təsirinin problemləri haqda milli reprezentativ tədqiqatlar aparılmayıb. 2004 və 2006-cı illərdə aparılmış ÜST-nin keçirdiyi Tütün üzrə Qlobal Epidemioloji tədqiqatların məlumatına görə yeniyetmələr (13-15 yaşlarında məktəblilər) (GYTS) və gənclər (ali tibb məktəblərinin 18-19 yaşlarında tələbələri) (GYTS) arasında uyğun olaraq 72 faiz məktəblilər və 85 faiz tələbələr evdən kənar ikincili tütün tüstüsünün təsirinə məruz qalırlar, bununla yanaşı 71 faiz məktəblilər və 70 faiz tələbələr hesab edirlər ki, bütün qapalı ictimai yerlərdə tütün çəkmək tamamilə qadağan edilməlidir.

"Tütün və tütün məmulatı haqqında" 8 iyun 2001-ci il tarixli 138-IIQ nömrəli Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycanda tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində, yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində siqaret çəkmək qadağandır. Mehmanxanalarda siqaret çəkənlər üçün xüsusi yerlər ayrılmalıdır. Müəssisə, idarə, təşkilat rəhbərləri və digər işəgötürənlər iş yerlərində siqaret çəkmək üçün xüsusi yerlər ayrılmasını və görünən yerlərdə «siqaret çəkmək qadağandır» xəbərdarlıq yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər. Qanunda göstərilən qadağalar olmasına baxmayaraq, Azərbaycan vətəndaşları hələ də ikincili tütün tüstüsünün təsirinə məruz qalırlar.

Tütün çəkməyənləri, başlıca olaraq uşaqları, passiv məruz qalmadan qorumaq üçün güclü tənzimləmələrə ehtiyac var.

**Məqsəd**

Tütün və tütün məmulatlarını istifadə etmədiyi halda, passiv tütünçəkməyə məruz qalma səbəbindən risk altına düşən ayrı-ayrı insanların və bütövlükdə cəmiyyətin sağlamlığını qorumaq.

**Vəzifələr**

1. 2013-cü ilə qədər "passiv tütünçəkməyə məruz qalmanın sağlamlığa aktiv tütünçəkmə qədər zərərli olması" anlayışını cəmiyyətin nəzərinə çatdırmaq.

2. 2015-ci ilə qədər hamilələrin və uşaqların passiv tütünçəkməyə məruz qalmağa uğramasının qarşısını almaq.

3. 2015-ci ilin sonuna qədər ictimai qapalı yerlərdə tütün məmulatlarının istehlakını tamamilə aradan qaldırmaq.

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | Passiv tütünçəkməyə məruz qalma mövzusunda məlumatların müəyyən olunması və nizamlı olaraq izlənməsi üçün milli səviyyədə araşdırmaların hazırlanması və aparılması. | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi. |
| 2. | Passiv tütünçəkməyə məruz qalmanın sağlamlıq riskləri mövzusunda əhalinin maarifləndirilməsi və məlumatlandırılması. | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Milli Teleradio Şurası, QHT-lər. |
| 3. | Tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, inzibati binalarda, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, uzaq mənzilli sərnişin nəqliyyatında, bütün ictimai nəqliyyat növlərində passiv tütünçəkməyə məruz qalmanın tamamilə qarşısını almaq üçün müvafiq qanuni tənzimləmələrin hazırlanması və planlaşdırılmış şəkildə tətbiq olunması, tətbiqin monitorinq və qiymətləndirilməsinin aparılması, ictimaiyyətin müraciətləri üçün qaynar xəttin yaradılması və bunun üçün müvafiq maliyyə resurslarının ayrılması. | Milli Məclis, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi. |
| 4. | Təhsil və səhiyyə qurumları başda olmaqla, bütün qurumlarda mərhələli olaraq passiv tütünçəkmə ilə əlaqəli daxili maarifləndirmənin, təlimlərin aparılması. | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, QHT-lər. |
| 5. | Cəmiyyətə aid qapalı və açıq sahələrdə tütün istifadəsinin qarşısını almaq məqsədi ilə; tətbiqedici, nəzarətedici, cəza tətbiq edən vəzifəli şəxs, qurum və strukturların açıq şəkildə ifadə olunmasını, eləcə də tətbiqedici, nəzarətedici, cəza tətbiq edən mexanizmləri təmin edən lazımi qanuni tənzimləmələrin aparılması. | Milli Məclis, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi. |

## C. TÜTÜNDƏN İSTİFADƏNİN DAYANDIRILMASI MƏQSƏDİ İLƏ KÖMƏK

### C1. Tütün çəkməkdən imtina

**Təriflər**

**Tütün çəkməkdən imtina nisbəti:** tütün çəkməkdən imtina edənlərin tütün çəkməkdə olanlarla müqayisədə nisbəti.

**Tütün çəkməkdən imtina: t**ütünçəkməni atma, bütün növ tütün məmulatlarının istifadəsindən imtina.

**Mövcud vəziyyət**

Ölkəmizdə bütün əhalini əhatə edən tütün çəkməkdən imtina nisbəti müəyyən edilməmişdir. Siqareti atan adamın siqareti atmaqla əldə edəcəyi sağlamlıq faydası haqqında məlumatlı olması çox vacibdir. Siqareti atma nə qədər erkən baş verərsə, bu fayda da bir o qədər artar. Yaşlı əhali arasında siqareti atma nisbətini artırmaqla qazanılan fayda yalnız onların özlərinə deyil, siqaretlə bağlı olan normalara da təsir edəcək. Belə ki, yaşlıların gənc nəsil üçün örnək modeli olmaları kimi

mexanizmlərdə siqaret çəkməyə başlayanların sayının azalmasını təmin edəcək. Siqaret atma cəhdi güclü bir asılılıq mövzusu olduğuna görə lazımi dəstək olmadıqda çox vaxt uğursuzluqla nəticələnir. Bu mövzuda kamil insan gücünün, iradənin, dərman, psixoloji məsləhətlər və digər dəstəklərin dövriyyəyə girməsi zamanı uğur əldə etmək şansı əhəmiyyətli dərəcədə artır. Siqareti atmağa kömək xidməti xərc tələb etsə də, hipertenziya müalicəsinə yönəlmiş xidmətə sərf edilən məbləğlə müqayisə edildikdə daha azdır.

Ölkəmizdə tütündən imtina üçün dəstək təsisatı yoxdur. Siqareti atmaq üçün istifadə edilən dərman vasitələrinin əldə olunmasında çətinliklər vardır. Tibb personalının tütün çəkməkdən imtina xidmətinin təşkili üzrə biliklərinin inkişaf etdirilməsində əhəmiyyətli dəyişikliklərə ehtiyac vardır.

**Məqsəd**

Tütün çəkməkdən imtinanın, tütün asılılığının müalicəsində və təkrar başlamanın qarşısının alınmasında vəziyyətin yaxşılaşdırılması.

**Vəzifələr**

1. 2015-ci ilə qədər cəmiyyətdə tütün çəkməkdən imtina nisbətini yüksəltmək.

2. 2015-ci ilə qədər cəmiyyətdə tütün çəkməkdən imtina nisbətinin 40%-dən artıq olmasına çalışmaq.

3. 2015-ci ilin sonuna qədər səhiyyə işçiləri arasında siqareti atma nisbətinin 50%-dən artıq olmasına çalışmaq.

4. 2015-ci ilə qədər hamilələr arasında siqareti atmış olanların nisbətinin 90%-dən artıq olmasına çalışmaq.

**Fəaliyyət istiqamətləri**

| | **Fəaliyyət istiqamətləri** | **Əlaqədar qurum və strukturlar** |
|---|---|---|
| 1. | Azərbaycanda Milli səviyyədə tütün istifadəsinə aid sosial araşdırmaların keçirilməsi. Bu sosioloji araşdırmaların nizamlı olaraq aparılması və sorğularda siqaretçəkmə və siqareti atma nisbəti mövzusunda sualların yerləşdirilməsi. | Dövlət Statistika Komitəsi, Səhiyyə Nazirliyi, QHT-lər. |
| 2. | Səhiyyə işçilərinin və psixoloji məsləhətçilərin diplomdan əvvəlki təhsilində nikotin asılılığı, neyrobiologiya, tütün çəkməkdən imtina texnikası və tütünə nəzarət mövzularının standart təhsil proqramlarında yer alması. | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi. |
| 3. | İlkin səhiyyə xidmətləri səviyyəsində tütündən imtina üçün məsləhət-müalicə xidmətlərinin yaradılması və bunun üçün maliyyə resurslarının müəyyənləşdirilməsi, tütündən istifadəyə dair müvafiq tibbi sənədlərdə və hesabatlarda qeydlərin aparılması üçün onların təkmilləşdirilməsi. | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi. |
| 4. | Nikotin asılılığının müalicəsində istifadə olunan dərman vasitələrinin asan əldə olunmasının təmin edilməsi. | Səhiyyə Nazirliyi. |
| 5. | Təhsil müəssisələri və iş yerlərində siqaret çəkənləri müəyyən edib onları siqareti atmaq üçün motivasiya ilə dəstəkləməklə proqramların hazırlanmasına başlanılması. | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. |

| | | |
|---|---|---|
| 6. | Siqaret və digər tütün məmulatlarının qutularında istifadəçini ciddi şəkildə çəkindirici şəkil və ya ifadələrdən istifadə olunması. | Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 7. | Tütün çəkməkdən imtina etmək istəyənlər üçün imtina motivasiyasını artıracaq, dəstəyi təmin edəcək qaynar telefon xəttinin yaradılması. | Səhiyyə Nazirliyi. |
| 8. | Müntəzəm surətdə bütün cəmiyyətə və xüsusi qruplara (səhiyyə işçilərinə, müəllimlərə, din xadimlərinə) yönəlmiş kütləvi tütün çəkməkdən imtina kampaniyalarının təşkil edilməsi. | Səhiyyə Nazirliyi, QHT-lər, KİV. |
| 9. | Səhiyyə üzrə müvafiq Dövlət Proqramlarında tütün çəkməkdən imtinanın tətbiqinin yer alması və müvafiq proqramlar arasında qarşılıqlı əməkdaşlığın təmin edilməsi. | Səhiyyə Nazirliyi. |
| 10. | Elmi sübutlara əsaslanmayan tütün çəkməkdən imtina xidmətlərinin təqdim olunmasının qarşısının alınması. | Səhiyyə Nazirliyi. |
| 11. | Tütün çəkməkdən imtina mövzusunda, yaş, cins və s. xüsusiyyətləri nəzərə almaqla, gənclər və hamilə qadınlar kimi xüsusi hədəf qruplarına yönəlmiş təhsil proqramlarının yayılması. | Səhiyyə Nazirliyi, QHT-lər. |
| 12. | Tütün çəkməkdən imtina mövzusunda mövcud vəziyyətin və bununla bağlı proqramların müvəffəqiyyətli icrası ilə əlaqədar müntəzəm sosioloji tədqiqatların aparılması. | Dövlət Statistika Komitəsi, Səhiyyə Nazirliyi, QHT-lər. |
| 13. | Tütün çəkməkdən imtina tətbiqinin effektivliyinin müntəzəm izlənilməsi və müşahidəni təmin edəcək institutların gücləndirilməsi. | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi. |

## D. TÜTÜNLƏ BAĞLI TƏHLÜKƏLƏRƏ DAİR XƏBƏRDARLIQ

### D1. Əhalini məlumatlandırma, maarifləndirmə və təhsil

**Mövcud vəziyyət**

Tütün və tütün məhsulları ilə mübarizə sahəsində aparılan maarifləndirmə və təhsil işləri olduqca zəifdir və əksəriyyəti müxtəlif səviyyələrdə bir-birindən ayrı olaraq həyata keçirilir.

Məlumatlandırma işlərində ciddi çatışmazlıqlar mövcuddur. Məlumatlandırma və maarifləndirmə işlərində ən təsirli vasitələrdən olan media öz üzərinə düşən vəzifələri yetərincə yerinə yetirmir, əksinə film və seriallarda siqaretçəkmə səhnələri çox yer tutur. Bununla yanaşı təşkilatlardaxili və təşkilatlararası maarifləndirmə əməkdaşlığı yetərli deyildir. Hərtərəfli ənənəvi təhsilin tütün və tütün məhsullarına qarşı mübarizə mövzusunda müəyyənləşmiş bir siyasəti yoxdur. Tütün və tütün məmulatlarının zərərləri mövzusunda tədris planları yoxdur. Cəmiyyətdə nümunə - rol modeli olan fərdlər (valideynlər, sənətkarlar, siyasətçilər, müəllimlər, idmançılar, tibb işçiləri, din xadimləri və başqaları) tütün və tütün məmulatları ilə mübarizə mövzusunda öz rollarının təsirindən xəbərsizdirlər.

**Məqsəd**

2015-ci ilə qədər cəmiyyətin əksər hissəsində tütünçəkmə əleyhinə münasibət yaratmaq.

**Vəzifələr**

Tütünlə Mübarizə üzrə Milli Strategiyanın qəbul olunması və tətbiq olunmasını hər səviyyədə asanlaşdırmaq üçün tütün və tütün məmulatlarının sağlamlıq, iqtisadi və sosial baxımdan zərəri mövzularında əhalinin məlumatlandırılması, maarifləndirilməsi.

**Fəaliyyət istiqamətləri**

| | **Fəaliyyət istiqamətləri** | **Əlaqədar qurum və strukturlar** |
|---|---|---|
| 1. | Tütün və tütün məmulatları ilə mübarizə mövzusunda təhsil siyasətinin inkişaf etdirilməsi və tətbiq edilməsi (davamlı təhsil siyasəti, şüurlu, standart, elmi sübutlara əsaslanan, müasir, interaktiv, maraq oyadan təhsil üsullarının inkişaf etdirilməsi, bu proqramın və üsulların hazırlanmasında ekspertləri, psixoloqları, psixiatrları, pedaqoqları və başqalarını cəlb etməklə şəxsən uşaqlar və gənclər üçün nəzərdə tutulan təhsilə yer verməli, uşaqlar və gənclərin mənəvi, fiziki və zehni, yaş fərqi nəzərə alınaraq təhsil proqramları ibtidai, litsey, universitet təhsili xüsusiyyətlərinə istiqamətlənməklə ayrı-ayrı hazırlanmalıdır); məktəbə getməyən, təhsilini yarımçıq qoyan, küçədə yaşayan uşaqlara fərqli yanaşılması. Hədəf qruplarına veriləcək mesaj və məlumatların sadalanan xüsusiyyətlər nəzərə alınmaqla hazırlanması. | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, QHT-lər. |
| 2. | Tütün məmulatlarının istehlakının etimad doğurmayan mənfi bir davranış olması mesajının cəmiyyətə çatdırılması üçün tütün məmulatları ilə əlaqədar bütün sahələrdə vizual mövzuların istifadəsinin yayılması. | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, QHT-lər. |
| 3. | Başlıca olaraq cəmiyyətdə nümunə - rol modeli olduğu hesab edilən və ya cəmiyyətə əhəmiyyətli təsiri olan peşə qrupları (müəllimlər, sənətkarlar, idmançılar, tibb işçiləri, media işçiləri, siyasətçilər din xadimləri və başqaları) olmaqla bütün hədəf qruplarına yönəlmiş geniş əsaslı təlim materialları (internet saytları, broşurlar, bukletlər, afişalar, kitablar və s.) təkmilləşdirilərək məlumatlandırma və maarifləndirmə səviyyələrinin artırılması məqsədi ilə geniş işlərin aparılması. | Səhiyyə Nazirliyi, KİV, QHT-lər. |
| 4. | Qurum rəhbərlərinin, vəzifəli şəxslərin, iş yerlərindəki məsul işçilərin tütün məmulatlarının zərəri və qapalı məkanlarda tütün çəkilməsinin ziyanı barədə məlumatlandırılmasını təmin etmək. Bu mənada iş yeri sahibləri tərəfindən inzibatçılara iş yerində siqaret çəkilməmək, işçilərin öz razılığı olmadan tütün tüstüsünə məruz qalmamaq hüququnun qorunması haqqında qaydaların hazırlanması. | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. |
| 5. | Maarifləndirmə işlərində media və bələdiyyələrin, yerli icma liderlərinin aktiv iştiraklarının təmin edilməsi. | Dövlət Mətbuat Şurası, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş İdarəsi |
| 6. | Bələdiyyələr və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən böyük yaş qruplarına yönəlmiş hər cür maarifləndirmə işlərinə əlavə olaraq göstərilən mövzu ilə əlaqədar məlumatlandırma işlərinin aparılması. | Bələdiyyələr, QHT-lər. |

| | | |
|---|---|---|
| 7. | Dövlət Mətbuat Şurası, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş İdarəsi, əlaqədar ictimai qurumların və vətəndaş cəmiyyəti təşkilatlarının hamısının tütünlə mübarizə mövzusunda rolları ilə bağlı maarifləndirməsi. | Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası. |
| 8. | Müəyyən edilən təhsil siyasətini tətbiq etməklə əlaqədar qurum və təşkilatlarla qarşılıqlı əməkdaşlıq səviyyəsində maarifləndirmə işlərinin aparılması. | Səhiyyə Nazirliyi. |
| 9. | Aparılan məlumatlandırma, maarifləndirmə üzrə təhsil kompaniyalarının təsirinin nizamlı olaraq izlənilməsi. | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, QHT-lər. |

**D2. Gənclərin tütün və tütün məmulatlarına əlçatanlığı**

**Mövcud vəziyyət**

"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycanın ərazisində 18 yaşına çatmamış şəxslərə tütün məmulatlarının pərakəndə satışına icazə verilmir. Lakin bu qadağanın yerinə yetirilməsinə nəzarət çətin olduğuna görə bu Qanun tez-tez pozulur. Məktəb ətrafındakı marketlərdə və səyyar satıcılar tərəfindən gənclərə tək-tək və ya qutu ilə siqaret satılır. Qadağan olunmasına baxmayaraq gənclərin bu məhsulları əldə etmələrində heç bir çətinliyə rast gəlinmir. Xüsusilə gənclərə xidmət edən qəlyanxanalar artır, müxtəlif ətirli məhsullarla qəlyançəkmə təbliğ olunur. Qanuni qadağalar olmasına baxmayaraq məktəb, xəstəxana, idman təsisatları, internet kafelərdə və buna bənzər məkanlarda siqaret satışı aparılır.

2004 və 2006-cı illərdə tütün üzrə ÜST-nin Qlobal epidemioloji tədqiqatları çərçivəsində yeniyetmələr (13-15 yaşlarında məktəblilər) və gənclər (tibb təhsili müəssisələrinin 18-19 yaşlarında tələbələri) arasında aparılmış regional reprezentativ tədqiqatların məlumatına görə daimi tütün çəkən məktəblilərin 63,3 faizi tütün məmulatlarını ticarət müəssisələrindən aldıqları, ticarət müəssisələrində siqaret alanların 81,4 faizi yaş səbəbinə görə siqaret satışında rədd cavabı almadıqlarını, tələbələrin 90 faizinin isə yeniyetmələrə tütün məmulatlarının satışının qadağan olunmasını hesab etdikləri aşkar olunub.

Yeniyetmələri cəlb edən, qəlyan, snyus, burunotu kimi (tütün üzrə ÜST-nin Qlobal epidemioloji tədqiqatlarının məlumatına görə tələbələrin və məktəblilərin 11 faizi daim bu tütün məmulatlarından istifadə edirlər) yeni tütün məmulatlarının peyda olunması 18 yaşa çatmamış şəxslərə tütün məmulatlarının satışını qadağan edən əlavə tədbirlərin tətbiq edilməsini tələb edir. Bundan başqa internet-mağazalar, poçt vasitəsilə məhsulların göndərilməsi və uzaq məsafədən olan satışın başqa üsulları kimi yeni satış üsullarının meydana çıxmasını nəzərə alaraq yeniyetmələrin tütün məmulatlarına əlçatanlığını azaltmaq üçün əlavə tədbirlərin tətbiq edilməsi tələb olunur.

**Məqsəd**

18 yaşa çatmayanlara tütün və tütün məmulatlarının satışı və paylanması yolu ilə əldə etmələrin qarşısını tamamilə almaq.

**Vəzifələr**

2015-ci ilə qədər 15 yaşından kiçik gənclər arasında siqaretçəkmə nisbətini 0-a, 15-18 yaş arasındakı gənclər arasında isə mövcud vəziyyəti ən azı yarıya endirmək.

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | 18 yaşa çatmayanlara tütün və tütün məmulatlarının satış və paylanmasını qadağan edən mövcud qanuni tənzimləməyə uyğunlaşmanın yoxlanılması və qanuni tənzimləmələrə uyğunlaşmayanlara qarşı onları bu yoldan çəkindirəcək xüsusiyyətdə cəza tədbirləri tətbiq edilməsi. | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 2. | Tütün və tütün məmulatlarının yalnız onların satışı üçün nəzərdə tutulmuş satış nöqtələrində satılması. | İqtisadi İnkişaf Nazirliyi. |
| 3. | Tütün və tütün məmulatı alan gənclərdən 18 yaşdan yuxarı olmalarını təsdiq edən sənədin satıcılar tərəfindən tələb edilməsi. | İqtisadi İnkişaf Nazirliyi. |
| 4. | Cəmiyyətə 18 yaşdan aşağı olanlara tütün satışının qadağan olunması məlumatının çatdırılması (satış nöqtələrində xəbərdarlıq lövhələrinin açıq və nəzərə çarpan şəkildə asılmasının məcburi olması). | Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi. |
| 5. | Tütün məmulatlarının siqaret satışı maşınları, *self-servis* satışı, poçtla sifariş və elektron satışlarının, market rəfləri və kassaları kimi asan əldə oluna biləcək yerlərdə satılmasının qadağan olunması ilə bağlı çatışmazlıqların aradan qaldırılması. | İqtisadi İnkişaf Nazirliyi. |
| 6. | Tütün məmulatlarının loqo, rəng və şəkillərin, şəkər, çərəz, oyuncaq, çanta və s. obyektlər üzərində olması, onların paylanması və satışını qadağan edən təlimatlara əməl olunub-olunmamasının yoxlanılması. | İqtisadi İnkişaf Nazirliyi. |
| 7. | Gənclərin bir yerdə toplandıqları kafe, internet-kafe, bufet və başqa yerlərdə tütün və tütün məmulatlarının (siqaret, qəlyan və s.) satılmasının, çəkilməsinin qadağan edilməsi. | İqtisadi İnkişaf Nazirliyi. |
| 8. | Yerli rəhbərliklər, vətəndaş cəmiyyəti təşkilatları, qurum və strukturlar tərəfindən uşaq və gənclərin idmanla, mədəni fəaliyyətlə məşğul ola biləcəkləri və siqaret dumanına məruz qalmayacaqları klubların yaradılması. | Gənclər və İdman Nazirliyi. |

## E. TÜTÜN MƏHSULLARININ REKLAMINA, SATIŞININ STİMULLAŞDIRILMASINA VƏ SPONSORLUĞUNA QOYULMUŞ QADAĞALAR

**Təriflər**

**Reklam və təbliğat:** hər hansı tütün məmulatını və ya tütün istifadəsini təlqin edən və ya təqdir edən birbaşa və ya dolayı yolla təbliğat məqsədi ilə aparılan hər cür ünsiyyət, tövsiyə və ya hərəkətdir.

**Sponsorluq:** hər hansı tütün məmulatının və ya tütün istehsalının birbaşa, yaxud dolayı yolla təqdimatıdır, təsiri və ya oxşar təsiri olan hər bir hadisə, fəaliyyət, ya da fərdə olan münasibətdə məlumatlı olmaqdır.

**Mövcud vəziyyət**

Media daxil olmaqla birbaşa ya da dolayı yolla hər cür reklam, təbliğat və sponsorluğun qadağan edilməsi tütün istehsalının azalmasına şərait yaratmaqla yanaşı tütün istifadəsinin sosial bir varlıq

kimi, xüsusilə gənclər arasında qəbul olunmasını əngəlləyir. Azərbaycanda bu barədə işlər aşağıdakı mövzular çərçivəsində aparılır:

Bütün növ tütün məmulatlarının, siqaretçəkmənin reklamı “Reklam haqqında” 3 oktyabr 1997-ci il tarixli 376-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə nizamlanır.

Tütün, tütün məmulatlarının reklamı qadağan edilib. Lakin hər-hansı tele və radioverilişlərdə, kinofilmlərdə və başqa audio və videoməhsullarda tütün məmulatlarının istehlakının göstərilməsi qadağan olunmayıb, bu da şübhəsiz ki, tütünün reklamıdır və tütün istehlakının cazibə görüntüsünü yaradır.

Satışına icazə verilmiş yerlərdə tütün məmulatları nümunələrinin paylanması ilə reklam aksiyalarının keçirilməsinə icazə yeniyetmələrin və gənclərin cəlb edilmə yollarından biridir. 2004 və 2006-cı illərdə tütün üzrə ÜST-nin Qlobal epidemioloji tədqiqatlar çərçivəsində aparılmış yeniyetmələr (13-15 yaşlarında məktəblilər) və gənclər (tibb təhsili müəssisələrinin 18-19 yaşlarında tələbələri) arasında regional reprezentativ tədqiqatların məlumatına görə məktəblilərin 76,5 faizi siqaret reklamını qəzet və jurnallarda gördükləri, 22,1 faizində siqaret loqotipi ilə əşyalar olduğu, 17 faizi tütün kompaniyalarının təmsilçiləri tərəfindən pulsuz siqaret əldə etmək təklifini aldıqları, 80 faiz tələbənin isə tütün məmulatlarının reklamının tamamilə qadağan olunmasını hesab etdiyi aşkar olunub.

Tütün reklamı siqaretçəkmənin cazibədar imicini formalaşdırır. Məsələn, sorğuda iştirak etmiş yeniyetmələr arasında 22,8 faiz oğlanlar və 14,9 faiz qızlar düşünürdülər ki, siqaret çəkənlərin dostları çoxdur. Dünya Bankının məlumatına görə tütün məmulatlarının bütün növ birbaşa və dolayı reklamı, satışın stimullaşdırılması və sponsorluğuna qadağanın qoyulması əhali arasında tütün istehlakının yayılmasının 16 faiz azalmasına gətirir. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda sponsorluq mövzusu yetərli dərəcədə açıqlanmayıb. Qadağan olunmasına baxmayaraq gizli və ya dolayı reklamlar davam etməkdədir.

**Məqsəd**

Tütün məmulatları ilə bağlı hər cür reklam, təbliğat və sponsorluq fəaliyyətlərinin qarşısının alınması.

**Vəzifələr**

1. 2013-cü ilə qədər siqaret və digər tütün məmulatlarının marka və firma reklamına vasitə olacaq hər cür reklam, sponsorluq və təbliğat pozuntularını 0-a endirmək.

2. 2013-cü ilə qədər siqaret və digər tütün məmulatlarının marka və firma reklamına qarşı inzibati və digər qanuni tədbirlərin ədalətli və daşındırıcı hala gətirilməsi.

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | Ölkədaxili və ölkəxarici mənbəli reklam pozuntularını izləyəcək və lazımi xəbərləri daha ətraflı və sürətlə aparacaq mexanizmlərin meydana çıxarılması. | İqtisadi İnkişaf Nazirliyi, Milli Teleradio Şurası, Mətbuat Şurası. |
| 2. | Tütün məmulatlarının sərhəddənkənar açıq və ya gizli reklam, təbliğat və sponsorluqlarının qarşısını almaq üçün lazımi qanuni tənzimləmələrin edilməsi. | Milli Məclis, Səhiyyə Nazirliyi. |
| 3. | Beynəlxalq mətbuatda görülə biləcək açıq və ya gizli tütün məmulatı reklamlarının görünməməsi üçün, lazımi texnologiyanın təminatı ilə əlaqədar nəşr qurumunun və ya məhsul sahibi firmanın məsuliyyət daşımaları üçün gərəkli tənzimləmələrin aparılması. | Milli Teleradio Şurası, Mətbuat Şurası. |
| 4. | Çərçivə Konvensiyasına tərəfdar olan ölkələr ilə tütünçəkmə ilə bağlı sərhəddənkənar xarici reklamçılığın qarşısının alınması üçün lazımi texnologiyaların və digər vasitələrin inkişaf etdirilməsi məqsədi ilə əməkdaşlıq edilməsi. | Milli Teleradio Şurası, Mətbuat Şurası, Səhiyyə Nazirliyi. |

## F. TÜTÜN MƏMULATLARINA QOYULAN VERGİLƏRİN ARTIRILMASI

### F1. Qiymət və vergiqoyma

**Mövcud vəziyyət**

Bu günə kimi Azərbaycanda siqaretə olan qiymət Avropada ən aşağı qiymətlərdən biri, siqaret isə əhalinin bütün təbəqələri üçün əlçatan olaraq qalır. Bundan başqa Azərbaycanda tütün məmulatlarına aşağı vergilər müəyyən edilmişdir. Məsələn, 2003-cü ildə Almaniyada tütün məmulatlarına olan vergilərdən gəlir, istehsal və istehlakın xeyli aşağı həcminə baxmayaraq, Azərbaycanın büdcəsinə analoji vergi gəlirlərini təqribən 30 dəfə üstələyib. Bununla yanaşı həmin ildə Azərbaycanda tütün istehlakı ilə bağlı yalnız ürək-damar və ağ ciyər xəstəlikləri ilə olan xəstələrə tibbi yardımın göstərilməsinə xərclər tütün məmulatlarının aksizlərindən olan vergi gəlirini 6 dəfə üstələyib. Eyni zamanda ÜST-nin iştirakı ilə keçən beynəlxalq tədqiqatlar tütün məhsullarının qiymətlərinin qaldırılmasının xüsusilə gənclər və aşağı gəliri olan təbəqənin bu məhsula tələbatının azalmasına gətirən, ən effektiv tədbir olduğunu göstərmişdir. Beynəlxalq təcrübə göstərir ki, tütün məmulatlarının qiymətinin qalxması tütün məmulatlarının tələbatının azalmasına çox təsir edir. Vergiləri artırmaq yolu ilə tütün məmulatlarının qiymətinin artırılması, xüsusilə gənclər və aşağı gəlir səviyyəsi olan qruplar arasında bu məhsulların istifadəsinin azalmasına yol açmaqla, cəmiyyətin gəlirlərinin artmasını təmin edir. Dünya Bankının məlumatlarına əsasən siqaretin qiymətinin 10% artımı, istehlakın 4% nisbətində aşağı enməsinə səbəb olur. Bu dəyişikliklər yüksək gəliri olan ölkələrdə 2,5-5%, orta və aşağı gəliri olan ölkələrdə 5-10% arasındadır. *Duty-free* satış mağazalarına gələn müştərilərə tütün və tütün məhsullarının vergisiz satışı istehlaka yüksəldici təsir göstərir.

**Məqsəd**

Tütün məmulatları üzərindəki vergi yükünü "qanunsuz ticarətə şərait yaratmayacaq nisbətdə" artıraraq tütün məmulatlarının qiymətinin qaldırılması və bu yolla tütün məmulatlarına olan tələbatın azaldılmasıdır.

**Vəzifə**

Azərbaycanda tütün və tütün məlumatlarının istehsalına və satışına qoyulan vergiləri hazırdakı vergilərlə müqayisədə 2013-cü ilə qədər 50%-dən yuxarı qaldırmaq (siqaretin satış qiymətini istehlakdan daşındıracaq tərzdə artırmaq).

**Fəaliyyət istiqamətləri**

| | **Fəaliyyət istiqamətləri** | **Əlaqədar qurum və strukturlar** |
|---|---|---|
| 1. | Xüsusi İstehlak Vergisinin artırılması. | Vergilər Nazirliyi. |
| 2. | Aparılacaq vergi tənzimlənmələrinin gəlir itkisinə yol açmadan və qanunsuz ticarətə şərait yaratmayacaq şəkildə hazırlanması. | Vergilər Nazirliyi. |
| 3. | Tütün məmulatlarına tətbiq olunan qiymət və vergiqoyma tədbirlərinin həmin tütün məmulatlarının digərləri ilə əvəz edilməsinə imkan verməyəcək şəkildə təşkil edilməsi. | Vergilər Nazirliyi. |
| 4. | Ölkə daxilindəki satış mağazalarında tütün məmulatlarının vergisiz satışının məhdudlaşdırılması, yoxlama və nəzarətin artırılması üçün tənzimlənmənin təşkil edilməsi. | Vergilər Nazirliyi. |

**F2. Qanunsuz ticarət**

**Təriflər**

**Qanunsuz ticarət:** tütün və tütün məmulatlarının saxta və ya qaçaqmalçılıq yolu ilə istehsalı və ya qanunsuz üsullarla son istifadəçiyə çatdırılmasını təmin edən və ya bunu asanlaşdıran fəaliyyətdir.

**Saxta məhsul:** ölkə daxilində və ya ölkədən xaricdə qeydiyyatı olan bir markanın (nişanın) surətinin təqlid edilməsi ilə istehsal bazarına çıxarılan və qeydiyyatlı məhsula görə xammal, sərf olunan vəsaitləri və kimyəvi qatqılar baxımından tərkibi fərqli ola biləcək və insan sağlamlığı baxımından risk daşıya bilən tütün məmulatlarıdır.

**Qaçaqmalçılıq məhsulu:** sənədsiz olaraq istehsal edilən və ya qanuni olmayan yollarla ölkə ərazisinə daxil olan məhsuldur.

**Mövcud vəziyyət**

Rəsmi ticarət şəbəkəsi vasitəsilə kontrafakt aksiz nişanlarının istifadəsi ilə kontrafakt (qeyri-leqal istehsal olunan) tütün məmulatlarının satışı və kontrafakt aksiz nişanlarının istifadəsi ilə və ya nişanlarsız kontrafakt tütün məmulatlarının qeyri-leqal satışı tütün və tütün məmulatlarının qeyri-qanuni satışının əsas üsullarıdır.

Azərbaycanda tütün məmulatlarının qeyri-leqal istehsalı və satışının həcmi haqqında obyektiv məlumatlar mövcud deyil. Kontrafakt siqaretlər çox vaxt məhsulun əslinə uyğun görünməsinə nail olmaq istəyən, lakin keyfiyyəti haqqında narahat olmayan gizli müəssisələrdə qeyri-leqal istehsal olunur. Azərbaycanda dəfələrlə kontrafakt siqaretlərin (ekspertiza qablaşdırmanın orijinaldan açıq-aydın fərqli və siqaretlərdə müxtəlif tütünlərin aşağı keyfiyyətli qarışığının olmasını müəyyən edib) böyük partiyaları məhv edilib. Beləliklə kontrafakt siqaretlərin istehsalı və tütün məmulatlarının qeyri-qanuni satışı, həmçinin qoyulmuş qiymətdən aşağı qiymətə tütün məmulatlarının təchiz edilməsini artırır, həm də bazarda zəhərliliyi (toksikliyi) xeyli artırılmış tütün məmulatlarının peyda olmasına səbəb olur.

Bu mərhələdə tütün məmulatlarının Azərbaycanda qeyri-qanuni satış həcminin müəyyən edilməsi lazımdır, həm də aşağıdakılara yönəlmiş tədbirlər daxil olmaqla, tütün məmulatlarının qaçaqmalçılıq, qeyri-qanuni istehsalat və saxtakarlıq kimi bütün qeyri-qanuni satış formalarının ləğv edilməsi üçün tədbirlər həyata keçirilməlidir.

Ölkəmizdəki tütün məmulatlarının qanunsuz ticarəti ilə mübarizədə :

tütün məmulatlarının istehsal tarixi və yerinin müəyyən edilməsi, monitorinqi, sənədləşdirməsi və tütün məmulatlarının hərəkəti və onların hüquqi statusunun nəzarəti üçün tütün məmulatlarının qutuları və hər hansı bir qablaşdırmanın üzərində aydın və asan oxunan nişanlanma təmin edilməli;

tütün məmulatlarının Azərbaycanın ərazisinə qeyri-leqal idxalı və Azərbaycanın ərazisindən qeyri-leqal ixracının qarşısının alınması üçün gömrük nəzarəti gücləndirilməli;

anbara yığılan və ya gömrüksüz rejimdə göndərilən tütün məmulatlarının saxlanılması və paylaşdırılmasına nəzarət təkmilləşdirilməli;

Azərbaycanın qanunvericiliyinə uyğun olaraq ekoloji təmiz üsulların köməyi ilə müsadirə edilmiş istehsalat avadanlığı, kontrafakt və qaçaq mal tütün və tütün məmulatları məhv edilməli;

tütün və tütün məmulatlarının qeyri-leqal istehsalı, qaçaqmalçılığı və qeyri-qanuni satışına görə məsuliyyət artırılmalı;

tütün və tütün məmulatlarının qeyri-leqal istehsalı, qaçaqmalçılığı və qeyri-qanuni satışı üzrə idarələrarası ekspert qrupunun işinin təşkili;

tütün və tütün məmulatları daşınan qeyri-leqal yükün aşkar edilməsi üçün gömrük postları xüsusi avadanlıqlarla təchiz edilməli;

tütün məmulatlarının qeyri-qanuni satışının ləğv edilməsi məqsədilə idarələrarası, regional və beynəlxalq əməkdaşlıq həyata keçirilməli;

qanunvericiliyə və beynəlxalq müqavilələrə müvafiq olaraq qeyri-qanuni satış, milli gömrük, vergi və digər orqanların məlumat mübadiləsi daxil olmaqla, tütün və tütün məmulatlarının transsərhəd satışı haqda məlumatların toplanması və monitorinqi sahəsində beynəlxalq əməkdaşlıq həyata keçirilməli;

tütün və tütün məmulatlarının qeyri-qanuni satışının qarşısının alınması üzrə tətbiq edilən tədbirlərin effektivliyi qiymətləndirilməli və yeni milli və beynəlxalq işləmələrə uyğun olaraq daim təkmilləşdirilməlidir.

**Məqsəd**

Qanunsuz ticarət tütün və tütün məmulatlarının istehsalını artıraraq əhalinin sağlamlığını təhdid etməkdə olan, gəlir itkisinə yol açan mütəşəkkil cinayətkarlığa, qanunsuz tətbiqlərə yol verməkdədir. Tütün və tütün məmulatlarının hər cür qanunsuz ticarətinin qarşısının alınması üçün milli və beynəlxalq səviyyədə tədbirlərin görülməsi.

**Vəzifələr**

1. 2013-cü ilin sonuna qədər Azərbaycanda tütün məmulatlarının qanunsuz ticarətinin ölçüsünü sübuta əsaslanan tədbirlərlə müəyyən etmək.

2. 2015-ci ilə qədər təsbit edilən tütün məmulatlarının qanunsuz ticarətini aradan qaldırmaq.

**Fəaliyyət istiqamətləri**

| | Fəaliyyət istiqamətləri | Əlaqədar qurum və strukturlar |
|---|---|---|
| 1. | Qanunsuz tütün məmulatları ticarəti ilə mübarizədə qarşıya çıxan problemlərin həllinə yönəlmiş qurum və strukturlardan mütəşəkkil işçi qrupun yaradılması. İşçi qrup əlavə büdcə ilə təmin edilərək, müəyyən olunacaq iş planına uyğun olaraq sübuta əsaslanan tədbirlərlə Azərbaycanda qanunsuz tütün məmulatları ticarətinin ölçüsünün araşdırılması. | Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi. |
| 2. | Qaçaqmalçılığın qarşısının alınması, izlənilməsi və bunlarla bağlı məsuliyyətə cəlb etmə ilə məşğul olan qurumların genişləndirilməsinə yönəlmiş lazımi tənzimləmələrin aparılması. | Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi. |
| 3. | Tranzit rejiminə tabe olan tütün məmulatları ilə əlaqədar yoxlamaların xüsusiyyətlərinin və saylarının yüksəldilməsi. | Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi. |
| 4. | Qanunsuz tütün məmulatları ticarətinin sağlamlıq və iqtisadi ölçüləri baxımından cəmiyyətin maarifləndirilməsi. | Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Gömrük Komitəsi. |
| 5. | Rəsmi dillerlərdən başqa xüsusilə səyyar satıcılıqda tütün məmulatlarının satışının qarşısını alma işlərinə başlanılması. | İqtisadi İnkişaf Nazirliyi. |
| 6. | Siqaret qutularındakı bəzi modellərin *X-RAY* cihazlarına həssas olmasından yararlanmaq məqsədi ilə gömrük girişlərində tir və konteyner keçidlərinin yoxlanılması üçün texnoloji təchizatın tamamlanması. | Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi. |
| 7. | Bazara çıxarılacaq tütün məmulatlarının təyin edilməsi və izlənməsini təmin etmək məqsədi ilə istehsal yerini və vaxtını müəyyən edəcək kodlaşdırma və ya oxşar işarələrin qoyulmasının təmin olunması. | İqtisadi İnkişaf Nazirliyi. |
| 8. | Saxlanılan qanunsuz tütün məmulatlarının ətrafa zərər verməyən üsullarla məhv edilməsinin təmin olunması. | Dövlət Gömrük Komitəsi. |
| 9. | Qanunsuz tütün məmulatları ticarəti ilə məşğul olmaları təsdiq edilənlərə qarşı yönəlmiş cəza tədbirlərinin gücləndirilməsi istiqamətində qanuni tənzimləmələrin aparılması. | Milli Məclis. |